# Artıq "Sona bülbül" fəryad çəkmir, aşiq də "Neyçün gəlməz" deyib ah-nalə etmir

## Çünki qədirbilən xalqımız Qədir Rüstəmovun yubileyini bu dəfə azad Ağdamda qeyd edirdi





**Müzəffər Ali Baş Komandan, qüdrətli sərkərdə İlham Əliyevin və şanlı Azərbaycan Ordusunun hünəriylə düşmənin 30 illik işğalından azad edilən Qarabağ yenidən xoş günlərinə qovuşub. Belə bir ovqatla misilsiz fədakarlıqları ilə könül xoşluğunu haqq edən el-oba şirin və unudulmaz bir xatirənin işığına toplaşmışdı.**

Ağdam Muğam Mərkəzində Azərbaycan muğam sənətinin inkişafına sanballı töhfələr verən, bənzərsiz ifa tərzi ilə adını yaddaşlara həkk etmiş Xalq artisti Qədir Rüstəmovun 90 illik yubileyinə həsr edilmiş xatirə gecəsi keçirildi. Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Qarabağ Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə keçirilən tədbir qədirsevərlər üçün gerçək və dəyərli bir töhfə idi.

Tədbir Qədir Rüstəmovun həyat və yaradıcılığına həsr olunmuş maraqlı videoçarxla başladı. Təqdim edilən epizodlar xəyalları ağdamlı günlərə qanadlandırdı, unudulmaz xatirələri canlandırdı. Bu bir həqiqətdir ki, dilimiz Qədir söyləyəndə istər-istəməz "Sona bülbüllər"in fəryadı, ah-naləsi ilə təsirlənirik. Dəryada gəmisi, biçilməmiş zəmisi qalan, yarın sonsuz cəfalarını çəkib sonda qazancı dərd-qəm olan qara sevdasında sabitqədəm nakam bir aşiq canlanır xəyallarımızda. Nigaran baxışlarıyla sevgilisinin gələcəyi yollara boylanan saf məhəbbət sevdalısı könlündəki ah-zardan, tükənən səbriqərardan, bir qəmli yarının olduğunu nəzərə almayan insafsızdan gileylənib özünə dönə-dönə "Neyçün gəlməz" deyə suallar verib, amma cavab ala bilməyən aşiq üzülür. Sonda məcbur olur ki, nəyə desən and içim, bu qəlb o qəlbinəndi…

Ev sahibi olaraq Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov yubiley tədbirinin qonaqlarını salamladı. Natiq milli-mənəvi dəyərlərimizin qorunmasına, muğam sənətinin inkişafına dövlətin davamlı və yetərli qayğısından, xüsusilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə ənənəyə çevrilmiş muğam müsabiqələri keçirilməsinin milli mədəniyyətimizin inkişafına verdiyi töhfələrdən minnətdarlıqla söz açdı. Qeyd etdi ki, zamanında dövlətin hərtərəfli qayğısı ilə əhatə olunan Qədir Rüstəmov ecazkar səsi, bənzərsiz ifa tərzi ilə incəsənət tariximizə yeni və parlaq səhifələr yazmağı məharətlə bacardı. Yüksək şəxsi kefiyyətləri, sadəliyi, təvazökarlığı, sözünün-könlünün toxluğu ilə xalqın sevimlisinə çevrildi. Könüllərdə özünə əbədi bir məhəbbət yuvası qurdu.

Gecədə çıxış edənlər unudulmaz sənətkarla bağlı xatirələrini bölüşdülər, Qarabağ və Şərqi Zəngəzurun, o cümlədən Ağdamın yenidən qurulmasından danışdılar.

Tədbirin təşkilatçıları sözlə musiqini qəribə bir vəhdətdə təqdim etməyi uğurla bacardılar. Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının müşayiəti ilə respublikanın sevilən muğam ifaçılarının təqdim etdikləri Qədir Rüstəmovun repertuarına aid xalq və bəstəkar mahnılarından ibarət musiqi çələngi alqışlarla qarşılandı.

Tədbirin sonunda yubilyarın oğlu Mehdi Rüstəmov çıxış edərək xatirə gecəsinin keçirilməsində zəhməti olan hər kəsə, tədbir iştirakçılarına ailə üzvləri adından minnətdarlığını bildirdi.

Ruhun şad olsun, böyük sənətkar! Qədirbilən bir elin dəyərli övladı olduğun üçün sən xoşbəxtsən, Qədir! Şirin nəğmələrin dilimizdə, xoş avazın xəyallarımızda yaşayır.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 10 dekabr (№260).- S.11.